Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal
vol. 5, № 4, 2023, pp. 98-102.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA ALİ HƏRBİ TƏHSİLİ SİSTEMİNİN YARADICISIDIR

**E.S. Cabbarov[1a], E.K. Mehdiyev[1b]**

[1] *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
[a] elkhan.cabbarov@sport.edu.az, orcid.org/0009-0003-5529-7235
[b] elshan.mehdiyev@sport.edu.az, orcid.org/0009-0009-2914-9398

**Nəşr tarixi**
Qəbul edilib: 11 oktyabr 2023
Dərc olunub: 28 dekabr 2023
© 2021 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Azərbaycan xalqının böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilən xeyirxah, vətənpərvər, yaradıcı, millətinin tərəqqisini hər şeydən uca tutmağı bacaran, həyatının hər anı xalqının taleyinə bağlı olan, bioloji yoxluğu mənəvi varlığı ilə əvəzlənən Ümummilli lider Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsindəki xidmətləri də əvəzsizdir. Vətən müharibəsindəki rəşadətli qələbəsi ilə hərb tarixinə öz adını qızıl hərflərlə yazan qüdrətli Azərbaycan Ordusunun qurucusu məhz Ulu öndər olmuşdur: 70-ci illərdən başlayaraq bu istiqamətdə apardığı məqsədyönlü siyasət, hərbi liseyin və ali hərbi məktəbin yaradılmasına nail olması, hərbi kadrların hazırlanması sahəsində görülən titanik işlər, qazanılan hərbi uğurlar məhz onun adı ilə bağlıdır. Qürurverici haldır ki, bu gün Azərbaycan Silahlı Qüvvələri yalnız ərazilərimizin qorunmasında deyil, həm də beynəlxalq təhlükəsizliyin təmin olunmasında fəal iştirak edir, ordumuzun uğurla həyata keçirdiyi əməliyyatlar aparıcı dövlətlərin hərbi mütəxəssisləri tərəfindən təhlil edilir, öyrənilir.

**Açar sözlər:** *ordu quruculuğu, hərbi təhlükəsizlik, hərbi islahat, döyüş əməliyyatı, hərbi təhsil sistemi, tədris proqramı, təlim və tərbiyə, peşəkar zabit təhsili, yaradıcı və innovativ düşüncə.*

Müstəqil ölkəmizin dövlət siyasəti əbədi öndərimiz Heydər Əliyevin müdrik, perspektivli, titanik fəaliyyətinin, qeyri-adi siyasi, dövlətçilik və diplomatik istedadının və təcrübəsinin üzərində qurulub. Ümummilli Liderimizin gənc, müstəqil respublikamızın dövlət suverenliyinin qorunub saxlanması və daha da yüksəldilməsi, naminə göstərdiyi yorulmaz fəaliyyətinin nəticəsində Azərbaycan beynəlxalq aləmdə nüfuzu möhkəmlənmiş, ölkədə aparılan demokratik hüquqi islahatlar dönməz xarakter almışdır. Uğurlu siyasi xəttin nəticəsidir ki, aparıcı dünya dövlətlərinin respublikamıza diqqət və marağı yüksəlmişdir. Xarici dövlətlərlə siyasi-iqtisadi, elmi-mədəni və digər sahələrdə, əməkdaşlıq haqqında ikitərəfli və bərabər hüquqlu müqavilələr imzalanmışdır. Azərbaycan iqtisadiyyatına xarici investisiyalar cəlb olunmuşdur. Bu gün müstəqil Azərbaycan Respublikasının bütün uğurlarına Heydər Əliyev imza atmışdır. Heydər Əliyevin yorulmaz və gərgin fəaliyyəti nəticəsində möhkəm dövlətçilik bünövrəsi üzərində qurulmuş möhtəşəm Azərbaycan dövləti XXI əsrdə də, 3-cü minillikdə də mövcud olacaq və Heydər Əliyev imzası daim bu möhtəşəmliyi təcəssüm etdirəcəkdir. Tarixin hər bir dövründə müdrik şəxsiyyətlərin ümumbəşəri mahiyyət daşıyan fəaliyyəti, ilk növbədə, mənsub olduqları xalqın ictimai tərəqqisində mühüm rol oynamaqla yanaşı, böyük, zəngin əhəmiyyəti ilə dəyərli örnəyə çevrilir. Dahilik yalnız qüdrətli təfəkkür sahibi olmaq deyildir. Əsl dahilik işıqlı zəkasının sarsılmaz gücü ilə zamanı qabaqlamaq və bütöv bir millətin, xalqın məsuliyyət yükünü öz çiyinlərində çəkmək, milyonları arxasınca apara bilmək istedadıdır. Azərbaycanın son yüz illik tarixində ən parlaq şəxsiyyət səviyyəsinə yüksəlmiş Ulu Öndərimiz Heydər Əliyevdə bu keyfiyyətlər özünün məntiqi bağlılığını tapmışdır. Tarixdə çox az dövlət rəhbəri tapılar ki, o bütün xalq tərəfindən Ümummilli Lider olaraq qəbul olunmuş müstəsna dərəcədə rəğbət və məhəbbət qazanmış olsun [3, 4].

Müasir dövrdə dövlətimizin diqqət mərkəzində olan əsas sahələrdən biri də təhsilin inkişafı məsələsidir. Bu istiqamətdə son illərdə keçirilən məqsədyönlü hərbi islahatlar müasir düşüncə tərzinə malik, bilikli, dövlətçiliyimizə sadiq vətənpərvər gəncliyin yetişməsinə əsaslı zəmin yaradıb. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da formalaşan yeni nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsi əsas vəzifələrdən hesab olunur. Ümummilli Lider Heydər Əliyevin həyat yolunun möhtəşəm salnaməsinə nəzər yetirərkən göz önündə Azərbaycan tarixinin çətin və şərəfli bir dövrünün dolğun mənzərəsi canlanır. Xalqımızın yetişdirdiyi bu dahi şəxsiyyətin bütün fəaliyyətinin Azərbaycanın inkişaf yolu ilə sıx vəhdət təşkil etdiyini bir daha aydın şəkildə görürük. Heydər Əliyevin Azərbaycanın gələcək müstəqil milli inkişafı ilə bağlı siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ-nin mövcud olduğu dövrdə də səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır [1]. İlk növbədə onu qeyd etmək lazımdır ki, Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi respublikaya rəhbərlik etdiyi ilk dövrdə (1969–1982) elm, təhsil və mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən işlər milli ruhun dirçəlməsinə, azərbaycançılıq məfkurəsinin zənginləşməsinə güclü təsir göstərmiş və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı zəmin hazırlamışdır. Həmin illərdə respublikanın ali və orta ixtisas təhsil şəbəkəsi genişləndirilmiş, SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilmişdir. Heydər Əliyev azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət ayırırdı. O dövrdə hazırlanmış yüksəkixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və təhlükəsizliyinə öz töhfələrini vermişlər [2, s.172-176].

“Heydər Əliyev və hərbi təhsil” mövzusunda tarixi araşdırmalar apararkən bir daha aydın oldu ki, ötən əsrin 70-ci illərində Azərbaycan Respublikasının rəhbəri hərbi təhsil ocaqlarının komandanlığı ilə sıx əlaqə saxlamış, o məktəblərdə azərbaycanlı gənclərin təhsil almasına bilavasitə qayğı göstərərək müxtəlif vaxtlarda mütəmadi olaraq məktəbləri ziyarət etmişdir. Həmin illərdə görülən tədbirlər və hazırlanmış hərbçi kadrlar müstəqillik dövründə Azərbaycanın ordu quruculuğuna layiqli töhfələr vermiş və milli hərbi kadrların hazırlanması prosesi sistemli xarakter almışdır. Ulu Öndərin cəsarətli addımları sayəsində 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi məktəb fəaliyyətə başlamışdır. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan belə bir məktəbin açılması o dövrdə heç də asan məsələ deyildi. Moskvadakı şovinist dairələr Azərbaycanda hərbi təmayüllü orta məktəbin yaradılmasına müqavimət göstərirdilər. Bakıya göndərilən komissiyaların məsələyə dair mənfi rəy verməsinə çalışırdılar. Amma Heydər Əliyevin məntiqli əsaslandırmaları, qətiyyəti və müdrik siyasəti sayəsində bu cəhdlərin qarşısı alındı və məktəb fəaliyyətə başladı.

Təsis edilən zaman məktəbə "Respublika ixtisaslaşdırılmış internat məktəbi" adı verilmişdir. Həmin ildən etibarən məktəb general Cəmşid Naxçıvanski adını daşımışdır. 24 noyabr 1997-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi lisey adlandırıldı. 2003-cü il aprelin 19-da Ulu Öndər liseyi ziyarət edərək "Döyüş bayrağı"nı təqdim etmiş, şəxsi heyətlə görüşüb, onlara şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulamışdır. Həmin gündən etibarən 19 aprel "Cəmşid Naxçıvanski adına Hərbi lisey" günü kimi qeyd edilir. Cəmşid Naxçıvanski adına Hərbi liseyin ölkəmizdə həyata keçirilən ordu quruculuğu prosesində və Silahlı Qüvvələr üçün milli zabit kadrların hazırlanmasında müstəsna rolu böyükdür. Liseyin məzunları Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmiş və qəhrəmanlıq nümayiş etdirərək "Azərbaycanın Milli Qəhrəmanı", "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş, müxtəlif orden və medallarla təltif olunmuşlar. Heydər Əliyev azərbaycanlı gənclərin Bakıda yerləşmiş Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də

SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də nail olmuşdur [2, s.176-178,].

Ümummilli lider dəfələrlə vurğulamışdır ki, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz Vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər şərəflə yerinə yetirə bilərlər. Qürurverici haldır ki, Azərbaycan gəncliyi Vətən qarşısında öz vətəndaşlıq borcunu layiqincə başa düşür, onun qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edir. 1999-cu ildə qəbul olunan "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi Proqramı"nda qeyd olunur ki, xalqın Vətəni qorumağa qadir, mərd, sadiq gənclərə böyük ehtiyacı var, məhz buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılmalıdır. Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır. Hər bir gəncin Vətənin tərəqqisi naminə çalışması üçün müəyyən sənətə, peşəyə sahib olması, dövlət quruculuğunda fəal iştirak etməsi, yüksək peşəkarlığa, təhsilə və elmə yiyələnməsi, geniş dünyagörüşə malik olması, əməyi sevməsi və onunla məşğul olması və təşəbbüskarlığı vacibdir. Vətənin maddi və mənəvi sərvətlərini qorumaq, iqtisadi qüdrətinin yüksəlməsinə nail olmaq, baş verə biləcək iğtişaş, təxribat və təbii fəlakətlərə qarşı həmişə mübarizə iqtidarında olmaq gənclər üçün vacib keyfiyyətlərdir [5, s.247].

Azərbaycanda hərbi quruculuq daim yüksələn xətlə inkişaf edir: vaxtilə Ümummilli liderin həyata keçirdiyi strateji əhəmiyyətli tədbirlər və ənənələr bu gün ordu quruculuğu işini prioritet sahə elan edən, ordu problemlərini hər an diqqət mərkəzində saxlayan, Silahlı Qüvvələrin döyüş hazırlığının artırılmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi dəyərləndirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirir. Azərbaycan hərbçiləri əsl qurucusu Ümummilli liderimiz olan Silahlı Qüvvələrin sıralarında yüksək döyüş hazırlığına yiyələnərək ləyaqətlə xidmət edəcək, həm ölkə rəhbərliyinin, həm də bütövlükdə xalqımızın inam və etimadını doğruldacaqlar [6, s.196].

Müasir həyatımızın hər sahəsində təzahür etmiş bütün yeniliklərin, inkişafa yol açmış qlobal dəyişikliklərin müəllifi, əfsanələri həqiqətə çevirən, neçə əsr əvvəlki hadisələri və layihələri yeni tarixi şəraitdə canlandıran, yaradan Ulu öndər xalqı səfərbər etməklə öz arxasınca apararaq mürəkkəb xarici-siyasi vəziyyətdə, yeni dünya düzəninin tələblərini və geosiyasi reallıqları nəzərə almaqla Azərbaycan dövlətinin milli inkişaf strategiyasını müəyyənləşdirdi və elmi-siyasi, tarixi cəhətdən əsaslandırdı. Bu strategiya Azərbaycan Respublikasını milli-mənəvi dəyərlərinin inkişafı, demokratik dövlətçiliyin möhkəmlənməsi, vətəndaş cəmiyyətinin, insan hüquqlarının təminatı, siyasi plüralizmin bərqərar olması, Avropaya inteqrasiya və bəşəri dəyərlərdən bəhrələnmə yoluna çıxarmışdır. Azərbaycan bu yolda inamla və ardıcıl surətdə irəliləyir [7].

## ƏDƏBİYYAT

1. **Həsənov Ə.** *Heydər Əliyev və Azərbaycanın müstəqil dövlətçilik maraqları*: [Elektron resurs] / 28 yanvar 2019. URL: http://az.strategiya.az/news.php?id=145616.
2. **Əliyev N.A.** *Azərbaycanın Ali Hərbi Dənizçilik Məktəbi Donanmanın xidmətində.* N.A. Əliyev 70, Bakı: 2009, 432 s.
3. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası*. Bakı, 24.10. 2013.
4. *Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi*. Bakı, 06.12.2016.
5. **Mirzəzadə A.** *Xalqın böyük xilaskarı*. Bakı: Azərbaycan nəşriyyatı, 2001, 607 s.
6. **Əhmədov Y.P.** *Vətən müharibəsi fəlsəfəsi.* Y.P.Əhmədov. Bakı: ADNSU, 2022, 357 s.
7. https://sesqazeti.az/news/politics/1050344.html#top.

# ГЕЙДАР АЛИЕВ – ОСНОВОПОЛОЖНИК СИСТЕМЫ ВЫСШЕГО ВОЕННОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Е.С. Джаббаров[1a], М.К. Мехтиев[1b]**

[1]*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
[a] elkhan.cabbarov@sport.edu.az, orcid.org/0009-0003-5529-7235
[b] elshan.mehdiyev@sport.edu.az, orcid.org/0009-0009-2914-9398

**Аннотация.** Заслуги общенационального лидера, ставшего великим нравственным мерилом азербайджанского народа, местом надежды и присяги, доброжелательного, патриотичного, созидательного, способного превыше всего ставить свой народ и в каждое мгновение своей жизни связанного с его судьбой, чье биологическое отсутствие заменяется его духовным присутствием, в области военного строительства, как и во всех областях, неоценимы. Создателем азербайджанской армии, вписавшей свое имя золотыми буквами в военную историю страны своей героической победой в Отечественной войне, был общенациональный лидер. Целенаправленная политика, которую он проводил в этой области, начиная с 70-х годов, создание военного лицея и высшего военного училища, титаническая работа, проделанная в области подготовки военных кадров, достигнутые военные успехи связаны с его именем. Предметом гордости является то, что сегодня Вооруженные Силы Азербайджана активно участвуют не только в защите своих территорий, но и в обеспечении международной безопасности, а операции, успешно проводимые нашей армией, находятся в центре внимания ведущих стран мира.

**Ключевые слова:** *армейское строительство, военная безопасность, военная реформа, боевая операция, система военного образования, учебная программа, обучение и воспитание, профессиональное офицерское образование, творческое и инновационное мышление.*

# HEYDAR ALIYEV IS THE FOUNDER OF THE HIGHER MILITARY EDUCATION SYSTEM IN AZERBAIJAN

**E.S. Jabbarov[1a], M.K. Mehdiyev[1b]**

[1]*Azerbaijan State Academy of Physical Education and Sport*
[a] elkhan.cabbarov@sport.edu.az, orcid.org/0009-0003-5529-7235
[b] elshan.mehdiyev@sport.edu.az, orcid.org/0009-0009-2914-9398

**Annotation.** The merits of the national leader, who has become a great moral measure of the Azerbaijani people, a place of hope and oath, who was benevolent, patriotic, creative, capable of putting his nation above everything and in every moment of his life connected with the fate of his people, whose biological absence is replaced by his spiritual presence, in the field of military construction, as in all other fields, are invaluable. The great leader was the founder of the mighty Azerbaijani army, which wrote its name in golden letters in the military history of the country with its heroic victory in the Patriotic War-the targeted policy he pursued in this area since the 70s, the establishment of a military lyceum and a higher military school, the titanic work done in the field of training military personnel, the achieved military successes are associated with his name. It is a matter of pride that today the

Armed Forces of Azerbaijan actively participate not only in the protection of our territories, but also in ensuring international security, the operations successfully carried out by our army are the focus of attention of leading countries.

**Keywords:** *army building, military security, military reform, combat operation, military education system, curriculum, training and education, professional officer education, creative and innovative thinking.*